# Qazandığımız tarixi Qələbədə qadınların rolu danılmazdır



**_8 Mart Beynəlxalq Qadınlar Gününü son iki ildə bir başqa ovqatda keçirdik. Həmin gün, ilk növbədə, şəhid analarını, şəhid xanımlarını və şəhidlərimizin qız balalarını, şəhid ailələrinin xanım üzvlərini, qazilərimizin xanım doğmalarını təbrik etdik, onlara ən xoş diləklərimizi yetirdik. Özü döyüşlərə qatılan xanımlarımıza, şəfqət bacılarımıza ehtiramımızı bildirdik, şəhid xanımlarımızın əziz ruhunu hörmətlə andıq. Ruhları şad olsun!_**

Beynəlxalq Qadınlar Günü uzun illərdir ölkəmizdə rəsmi bayram kimi qeyd olunur. Hər il 8 Mart ərəfəsində Azərbaycanın dövlət başçısı bayram münasibətilə qadınlarımıza təbrik ünvanlayır, ictimai, mədəni həyatda, ümumən, müxtəlif əməli fəaliyyət sahələrində fərqlənən qadınların bir qrupuna fəxri adlar verir, orden, medal və ya "Fəxri diplom"la təltif edir.

Azərbaycan Respublikası öz ailə, qadın və uşaq siyasəti ilə seçilən dövlətlərdəndir. Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi bu sahədə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Komitə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edərək, sahənin inkişafını təmin edir. Komitəyə qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq, dövlətin ailə siyasətini həyata keçirmək, qaçqın və məcburi köçkün qadınların, uşaqların, aztəminatlı ailələrin sosial problemlərini öyrənmək və onların həlli üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaq, qadınlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, ailə kəndli təsərrüfatlarının yaradılmasında müvafiq dövlət orqanları ilə birlikdə məsləhətlərin verilməsini təmin etmək, məşğulluq strategiyasının həyata keçirilməsi istiqamətində dövlət siyasətinə uyğun olaraq, qadınların müxtəlif yeni peşələrə yiyələnməsi və ixtisaslarının artırılması məqsədilə layihələr hazırlamaq və əlaqədar təşkilatlarla birgə tədbirlərin görülməsini təmin etmək, ailə başçısını itirmiş şəhid ailələrinin, tək anaların, xüsusilə, əlil qadınların və uşaqların problemlərinin dövlət orqanları tərəfindən həlli məqsədilə müvafiq vəsatətlər qaldırmaq və s. kimi önəmli fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək həvalə olunub. Həmçinin parlamentdə Ailə, Qadın və Uşaq məsələləri Komitəsi yaradılıb. Qadın siyasəti ilə bağlı normativ hüquqi aktlar qüvvədədir, fərman və sərəncamlar imzalanıb. Bunlar dövlətimizin qadın, ailə, uşaq mövzusuna verdiyi yüksək önəmin parlaq ifadəsidir.

Dövlət qadın siyasətinin davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir. Azərbaycan qadınları önəmli dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

Bu töhfələrin paylaşılması, qabaqcıl təcrübələrin bölüşülməsi, ümumi mənzərinin öyrənilməsi və qarşıda duran yeni vəzifələrin icrası baxımından Azərbaycan qadınlarının qurultayları da mühüm hadisələrdəndir. 1998-ci il sentyabrın 25-də keçirilmiş Azərbaycan Qadınlarının I Qurultayı dövlət qadın siyasətinin tarixində önəmli hadisə olub. Respublikamızda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərin gedişində Azərbaycan qadınlarının daim milli dövlətçilik mövqeyindən çıxış etməsini nümayiş etdirən qurultayda bir sıra vacib məsələlər müzakirə olunub. 1998-ci ildən etibarən, hər beş ildən bir Azərbaycan Qadınlarının Qurultayı keçirilir. Bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar hadisələrdən biri kimi dəyərləndirilir.

Əlbəttə, Heydər Əliyev Fondunun prezidenti və son 5 ildə ölkəmizin Birinci vitse–prezidenti olan Mehriban xanım Əliyevanın qadınlarla, ailə institutumuzla, uşaqlarla bağlı həyata keçirdiyi layihələr xüsusi vurğulanmalıdır. Çox hörmətli Mehriban xanımın xalqımız, dövlətimiz, mədəniyyətimiz qarşısındakı misilsiz xidmətləri gənc qızlarımız, qadınlarımız üçün örnəkdir və cəmiyyətdə qadınların rolunun artması ilə müşayiət olunmaqdadır. Ölkəmizin "Yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanmış humanitar layihələr Azərbaycana yeni dostlar qazandırır. Mehriban xanımın xeyriyyəçilik sahəsindəki səmimi, təmənnasız tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Onun rəhbəri olduğu Heydər Əliyev Fondu uzun illərdir ölkəmizin humanitar və mədəni diplomatiyasının təmsilçisinə çevrilib və bu fəaliyyət hər şeydən öncə, dünyada Azərbaycanın layiqli təmsili, tərənnümü və tanıtımıdır. Ölkəmizin Birinci vitse-prezidentinin rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən, ənənələrimizi yaşadan çoxsaylı unikal layihələrin uğurlu icrası Azərbaycan qadınının zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olmasının, mərhəmət və xeyirxahlığının parlaq nümunəsidir.

Azərbaycan qadını bütün dövrlərdə dövlətə, Vətənə və ailəyə bağlılığı ilə, sədaqəti, fədakarlığı ilə seçilib. Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, sosial-iqtisadi və mədəni potensialımızın artırılması üçün dəyərli töhfələr verib. Azərbaycan qadını tarix boyu müqəddəs ana adını, ana şərəfini uca tutaraq, öz mübarizliyi ilə tanınıb.

Qadınlarımız ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edib, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə yanaşı, döyüş meydanlarında da şücaət göstərib. İstər I (Çanaqqala savaşını yadımıza salaq), istərsə II Dünya müharibəsində, I və II Qarabağ müharibəsində Azərbaycan qadını sırğasını, üzüyünü haqq işinin qalibiyyəti, cəbhələrdə vuruşan qardaşlarımızın, Azərbaycan oğullarının təminatı üçün tərəddüd etmədən göndərib, corab toxuyub, əlcək hörüb, alın təri axıdıb, ərinin, qardaşının, oğlunun yerinə də işləyib... 44 günlük Vətən müharibəsi bu tarixin, dediklərimizin ən yaxın və parlaq ifadəsi oldu. Oğlu şəhid olan analar "Bircə ordumuz dayanmasın, torpaqlarımızı azad etsin", "Vətən sağ olsun" – deyirdi. Qardaşı, həyat yoldaşı şəhid olan bacılarımızın, oğlu şəhid olan analarımızın tabut daşıdığını az görmədik, onların dəyanət və mətanətinin az şahidi olmadıq. Bəli, Azərbaycan qadını şərəfli qadındır. Müqayisə baxımından deyil, faktın özünü ifadə baxımdan deyirəm: 44 gün ərzində 10 min fərarisi, qaçan, qovulan Ermənistan ordusuna mənsub gənclər də ana doğmuş, "tərbiyə" etmişdi, hərbi çağırış, səfərbərlik idarələri qarşısında böyük növbələr, izdiham yaradan Azərbaycan oğul və qızlarını da qadın doğub, qadın tərbiyə etmişdi.

Bəli, qadınlar doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu dövrlərdə gənc nəslin vətənpərvər tərbiyə olunması və xalqa, cəmiyyətə layiqli övlad kimi yetişməsi naminə öz üzərinə düşən ağır yükü şərəflə daşıyıb. Qadınlarımızın aktiv fəaliyyəti həyatın bütün sahələrində olduğu kimi, ordu quruculuğundakı xidmətləri də şərəf və qürur mənbəyimizdir. Hazırda Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edərək, Vətən qarşısında vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirir.

Əlbəttə, mülki işlərdə çalışan qadınlarımızın da əməyi yüksək dəyərləndirilir. Ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən Azərbaycan qadını alnıaçıq, üzüağ qadındır. Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründən bəri seçib-seçilmək hüququ qazanaraq, ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlayıb. Sürətlə maariflənən qadınlarımız yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla, ana dilimizin, mədəni-mənəvi irsimizin ən etibarlı dayağı olub. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağzıdualı analarımızın müdrikliyinin daşıyıcısı olan çağdaş Azərbaycan xanımları öz dərin zəkası, tükənməz daxili potensialı ilə bu gün də xalqa və cəmiyyətə fədakarlıqla xidmət edirlər.

Bu sözləri yazarkən, qadınların dövlətin idarəolunma prosesində iştirakını dəstəkləyən ümummilli liderimizi minnətdarlıqla yad etməyi özümə borc bilirəm. Məhz Heydər Əliyev ölkəmizdə çağdaş dövlət qadın siyasətinin əsasını qoyub. Ümummilli liderimiz qadın şəxsiyyətinə böyük sayğı ilə yanaşır, bütün əməli fəaliyyət sahələrində qadınlara xüsusi yer ayırır, onların hərtərəfli səmərəli fəaliyyətinə geniş meydan verirdi.

Hazırda Azərbaycan qadınları cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilib. Milli-əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı, ilk sırada analarımızın müdrikliyi sayəsində çətin dövrlərin sınağından çıxa bilib. Bir sıra ölkə qadınlarından öncə seçib–seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Dövlət müstəqilliyimizin bərpasından sonra ötən 30 ildə Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr verib. Elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə o öz nüfuzunu ilbəil artırmağa nail olub. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində də qadınlarımızın uğurları məmnunluq doğurur. Respublikamızdakı sabitlik və demokratik mühit qarşıdakı illərdə də onları öz fitri istedadlarını, yaradıcılıq imkanlarını tam gerçəkləşdirə bilmək üçün lazım olan şəraitlə təmin edir.

**_Qənirə PAŞAYEVA,_**
**_Milli Məclisin Mədəniyyət komitəsinin sədri_**